Elm: xüsusi buraxılış .-2025.-18 noyabr (№36-37).- S.16.

# AMEA prezidenti "Şəki gülüşü və Qabrovo yumoru" kitabını bolqarıstanlı həmkarına təqdim edib



**AMEA-nın 80 illik yubileyi ərəfəsində Şəki və Qabrovo yumoru haqqında monoqrafiya çapdan çıxıb.**




Azərbaycan Milli Elmlər Akademiyası və Bolqarıstan Milli Elmlər Akademiyasının (BEA) birgə elmi layihəsi çərçivəsində aparılan tədqiqat nəticəsində Azərbaycan xalqının Şəki gülüşü ilə Bolqarıstanın Qabrovo yumorunun oxşar və fərqli cəhətləri elmi müstəvidə araşdırılıb.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və AMEA-nın Şəki Regional Elmi Mərkəzinin alimləri tərəfindən həyata keçirilən bu araşdırma "Şəki gülüşü və Bolqarıstanın Qabrovo yumoru" adlı kitab şəklində toplanaraq elmi ictimaiyyətə təqdim olunub.

AMEA-nın "Elm" nəşriyyatı tərəfindən yüksək poliqrafik səviyyədə çap olunan bu nəşr, xalqların mədəni yaddaşında gülüş fenomeninin, yumor ənənələrinin və xalq psixologiyasının müqayisəli tədqiqi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Tədqiqat işi iki elmi qurum arasında dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə, həmçinin mədəni-elmi inteqrasiyanın genişlənməsinə xidmət kimi qiymətləndirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli kitabı Akademiyanın 80 illik yubileyi çərçivəsində ölkəmizdə səfərdə olan BEA-nın prezidenti professor Evelina Slavçevaya təqdim edib.